Türküstan.- 2024.- 23-29 aprel, №15.- S.13.



# Dünya bərabəri dost itirmişik...

## “Möcüzə barmaqlar” sahibi Əli Haqşünasın xətirəsinə...

**Qiymət MƏHƏRRƏMLİ,
Filologiya üzrə fəlsəfə
doktoru, şair**

**Qoy dünya eşitsin, qoy bilsin aləm,
Dünya bərabəri dost itirmişik.
Dillər kilidlənib, yas tutub qələm,
Dünya bərabəri dost itirmişik.**

**Söhbəti xoş idi, sözü xoş idi,
Bir mələk simaydı, üzü xoş idi.
Halaldan-halaldı, özü xoş idi,
Dünya bərabəri dost itirmişik.**

**Gözlərə işıqdı, qəlblərə nurdu,
Neçə ürəklərdə taxtı-tac qurdu.
Dünyanı sevgiylə, eşqlə qucurdu,
Dünya bərabəri dost itirmişik.**

**Təbrizdən başlanan yolu variydi,
Şuşaya uzanan qolu variydi.
Dosta səxavətli əli (Əli) variydi,
Dünya bərabəri dost itirmişik.**

**Ruhu başdan-başa nəğmə seliydi,
İnsan aşiqlydi, yurda vəliydi.
Mələk xislətliydi, tutidiliydi,
Dünya bərabəri dost itirmişik.**

**Yaşayan bəstədi, ucalan səsdi,
Cənnətə üz tutan bir müqəddəsdi.
Heyf, ayrılmağa yaman tələsdi,
Dünya bərabəri dost itirmişik...
Dünya bərabəri dost itirmişik...**

Əli bəy Haqşünası (1961-2024) soydaşlarımız otaylı-butaylı Azərbaycanımızın milli-mənəvi dəyərlər xəzinəsinin ən fədakar və təmənnasız cəfakeşlərindən biri kimi tanıyıb-sevməkdədirlər. Əfsuslar olsun ki, biz bu böyük sənətkarı, dəyərli şəxsiyyəti, vətənsevər türk oğlunu vaxtsız itirdik.

Təsadüfi deyil ki, Əli bəyin xatirəsinə həsr olunmuş anım gecələri təkcə doğulub boya-başa çatdığı Təbrizimizdə, illərdən bəridir yaşayıb-fəaliyyət göstərdiyi ABŞ-ın Hyuston şəhərində təşkil olunmaqla yekunlaşmadı. Yaxın günlərdə Əli bəyin canı qədər sevdiyi doğma Bakımızda yüksək səviyyədə keçirilən anım mərasimi bu böyük sənətkar-şəxsiyyətin xatirəsinə düzənlənmiş olduqca səmimi bir gecə kimi yaddaşlara əbədi yazıldı. Gecəyə Əli bəyin sənət, ailə və pərəstişkar dostları, sənətsevərlər toplaşmışdılar.

Xatirə gecəsi xalqımızın dəyərli sənətkarı, virtuoz qarmon ifaçısı, sənətsevərlərin sevimlisi Ənvər Sadıqovun “Renever” adlı möhtəşəm yaradıcılıq studiyasında baş tutdu. Ənvər bəyin komandası gecənin yüksək səviyyədə alınması üçün bütün gücünü səfərbər etmişdi.

“Zər qədrini zərgər bilər” deyən atalarımızın bu hikmətli kəlamı nahaqdan işlətmədiklərini biz o axşam bütün varlığımızla duyduq. Ənvər bəyin, eləcə də gecənin təşkilində xüsusi fədakarlıq göstərən Təbriz əsilli sənət fədaisi Cavad bəy Həssasın, məclisin aparıcısı — sənətşünaslıq doktoru, dəyərli tədqiqatçımız Əhsən bəy Rəhmanlının peşəkarlıqla ərsəyə gətirdikləri gecədə unudulmaz qarmon ifaçısı Əli Haqşünasın ömür və yaradıcılıq yolu tamaşaçıların gözləri qarşısında birər-birər sərgiləndi. Sənətkarımızın özündən sonra qalan yadigar səs yazıları, möhtəşəm ifalarından ibarət video-çarxlar, foto-slaydların nümayişi, Əhsən müəllimin sənətkarlığına və şəxsiyyətinə yüksək dəyər verdiyi unudulmaz sənət dostunun ömür yoluna güzgü tutan açıqlamaları ilə müşayiət olunurdu. Gecənin musiqi ərmağanı Əli bəyin sənət dostlarından gəldi. Əməkdar artist Zakir Əliyev, kamança ifaçısı Hüseyn Nağıyev, tarzən Rəşad İbrahimov, pianoçu Sevinc Kərimova, ustad Aşıq Cahangir, qarmon ifaçıları — Şəmsi Ağamalıyev, İlqar Kərimov, Nemət Hüseynov və Natiq Mirzəyevin klassik və xalq musiqimizin ən gözəl örnəklərini ifa etmələri gecəni unudulmaz etdi. Şair, tədqiqatçı-alim Qiymət Məhərrəmlinin çıxışı və unudulmaz sənətkarın xatirəsinə həsr etdiyi “Dünya bərabəri dost itirmişik” şeiri mərasim iştirakçılarını dərindən təsirləndirdi.

***Xatirələr dilə gəldi. Əli bəyin yaxın dostları Cavad Həssas və Kazıminin qürur və səmimiyyət dolu çıxışları bu böyük Vətən, Millət fədaisinin, unudulmaz sənətkarın qısa, lakin olduqca dolğun və şərəfli həyatından səhifələrin ‘əxunmasına” imkan yaratdı. Gecədə mərhum sənətkarın sədaqətli ömür-gün dostu Rübab xanımın mərasim iştirakçılarına ünvanladığı səs yazısı da nümayiş etdirildi.***

Sonra söz mərasimə evsahiblyi edərək, sənətə və sənətkara yüksək ehtiramını təcəssüm etdirən Ənvər bəyə verildi. Ə.Sadıqov həyatda cəmi bir dəfə görüşsələr də, bu bircə görüşdə insanlığına, vətənpərvərliyinə və sənətkarlığına vurulduğu Əli bəy Haqşünas kimi əvəzolunmaz Vətən övladının ən yüksək ehtirama layiq olduğunu vurğuladı. Vətənimizdə, eləcə də Vətəndən uzaqda yaşayan hər bir soydaşımızı Azərbaycanımızın adını ucalara qaldıra biləcək səviyyədə - Əli bəy Haqşünas kimi ləyaqətlə, Vətənimizin, millətimizin adına layiq şərəflə yaşamağın vicdan, qürur və şərəf borcu olduğunu vurğuladı.







***İllərin sınağından çıxmış dostluqlarının mənəvi yaşantılarını dilə gətirən Əhsən Rəhmanlı, Azərbaycanımızın ifaçılıq sənətində özünəməxsus yeri və rolu olan bütün sənətkar dostlara Əli Haqşünasın anım mərasimindəki iştiraklarına və göstərdikləri məharətli ifalara görə minnətdarlığını bildirdi. Dünyaya səs salmış qarmon sənətini yaşadanlarla bağlı apardığı tədqiqatlardan, bugünədək yazdığı araşdırma kitablarından və gələcək planlardan danışdı. Əli Haqşünasın qarmon ifaçılığı sənətinin musiqi tariximizdə daim yaşayacağına inamını ifadə etdi.***

***Mərasim xatirə şəkillərinin çəkilməsi ilə yekunlaşdı.***

